

## ƏBÜLFƏT USUBOĞLU

*Əbülfət Usub oğlu Məmmədov Ağcabədi rayonunun Salmanbəyli kəndində anadan olub. 1968-ci ildə Ağcabədi şəhər 2 saylı orta məktəbi bitirib. M. F. Axundov adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun məzunudur. 1980-ci ildən dövrü mətbuatda təmsilləri və publisist yazıları ilə çıxış edir. "Qızıl Qələm" media mükafatı laureatıdır. Ailəlidir, bir övladı, üç nəvəsi var.*

### YARIŞA SƏSLƏYİRDİ

Sərçə qonub budağa,
Coşub cikkildəyirdi.
Lovğalanıb bülbülü,
Yarışa səsləyirdi.

### XORUZ

Toyuqların yanında,
"Xoruz" xoruzlanırdı.
Xoruzları görəndə,
Xoruzluğun danırdı.

### DİLƏNÇİ YABI

Çal yabı unutmuşdu,
Diləndiyi anları.
Gözlərini tutmuşdu,
Haram olan pulları.

### GÖZƏL MEYMUN

Güzgünün qabağında,
Meymun bərkdən gərnəşdi.
"Yaman gözələm" deyə,
Sevincək fikirləşdi.

### GÖRƏNLƏR DESİNLƏR...

Həmişə qoltuğunda,
Gəzdirirdi kitabı.
Görənlər desinlər ki,
Çox savadlıdır yabı...

### SAVADLI ÖRDƏK

Ördəyi çəkdilər irəli,
Dedilər qışqırıb savadı.
Çünki xoruzun katibiydi,
Ördəyin "sevimli" arvadı.

### İYNƏ LOVĞALIĞI

Hara üz tuturamsa,
Daim açılır qapı.
Belə olduğu halda,
Daha neynirəm sapı.

### HAQSIZLIQ

Gözəllik yarışında
Meymun birinci oldu.
Ceyran bu haqsızlığa,
Dözə bilməyib öldü.

### ŞƏKİLÇƏKƏNİN KƏDƏRİ

Şəkil çəkən aparat,
Xəlvəti ağlayırdı.
Telefonun işləri,
Onu lap dağlayırdı.

## AC DOVŞAN

Kələmə möhtac idi,
Kasıblamışdı dovşan.
Şir isə qonşuluqda,
Gündə yeyirdi ceyran.

## LAĞ EDİRDİ

Dəniz nəhəngəm deyib,
Lağ eyləyirdi çaya.
Suyu azalan kimi,
Tez çağırırdı haya.

## YALTAQ

Özündən zəifləri,
İt kimi dalayırdı.
Güclülərin evində,
O, boşqab yalayırdı.

## AZADLIQ HƏSRƏTİ

Bülbül öz qəfəsində,
Yaman cəh-cəh vururdu.
Sərçə sərbəstliyini,
Daha üstün tuturdu.

## VANNA GİLEYİ

Yadlarına düşmürəm,
Çimərlikdə çiməndə.
Kir-paslarını isə
Təmizləyirlər məndə.

## İT YALTAQLIĞI

Vəzifəcə kiçikləri,
İt yaman dolayırdı.
Böyükləri görəndə,
Quyruğun bulayırdı.

## YATAĞAN KÖPƏK

Köpək bütün sutkanı,
Fasiləsiz yatırdı.
Aclığı hiss edəndə,
Pişiyə əl açırdı.

## DİLƏNÇİ KÜÇÜK

Ala küçük acından,
Az qala dilənirdi.
Elə ona görə də,
Gecələr sülənirdi.

## OĞRU İT

Oğru it sümsünürdü,
Onun çıxmışdı zayı.
Sevincindən hürürdü,
Tapmışdı qaloş tayı...

## CANGÜDƏN İSTƏYİRDİ

Aslan əsəblərini,
Güclə cilovlayırdı.
Hirsdən dodaqlarını,
Gəmirib dişləyirdi.
Çünki, o son zamanlar,
Çaqqalın ofisində
Cangüdən işləyirdi...

## ƏLƏ SALIRLAR

Çaqqalın toyudur -
Ulaq zildən oxuyur.
Xətri xoş olsun deyə
Yerdən əl çalırlar,
Guya alqışlayırlar.
Eşşək anlamayır ki,
Onu ələ salırlar.

## MEYVƏLƏRİN MÜBAHİSƏSİ

Bir meyvə dükanında
Mübahisə etdilər.
Banan, qoz və çiyələk
Çiyələk söylədi ki
Ürəyə bənzəyirəm
Ona görə də məni
Daha da çox sevirlər,
Sevə-sevə yeyirlər.
Qoz gülərək söylədi:
-Gəl sən çox da öyünmə,
Sən mənə diqqət yetir.
Beyinə oxşayıram
Ona görə özümü,
Mən xoşbəxt sayıram...
Məni lap çox sevirlər,
Sevə-sevə yeyirlər.
Banan çox fikirləşib,
Bilmədiki nə desin:
Nəyə oxşadığını
İftixarla söyləsin
Bərkdən qışqırıb dedi:
-Bəsdi söhbəti kəsin...

## MEYMUNUN ƏDASI

Papaq sifarişi verib,
Meymun bir papaqçıya.
Bu gün isə o gəlib,
Papağını almağa.
Güzgünün qarşısında
Papaq isə başında,
Ora-bura fırlanır.
Qaş-qabağın sallayır:
Bu nə papaqdır deyə -
Bir kənara tullayır.
Papaq mənə uyuşmur,
Sifətimə yaraşmır.
Usta bərk əsəbləşib
Dedi: - a meymun bil ki,
Bəyənmədiyin papaq
Sənə layiq deyildir.
Papaq gözəl papaqdır,
Sənin üzün sifətin
Yaxşı sifət deyildir.